17 noyabr Milli Dirçəliş günüdür

www.iqtisadiyyat.com

№ 46 (989) 16-22 noyabr 2017-ci il

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## YAP güclü, mütəşəkkil, cəmiyyətdə böyük nüfuza malik partiyadır




Noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev mərasimdə nitq söyləmişdir. O, demişdir:

- İyirmi beş il əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu, böyük tarixi hadisə idi. Təbii ki, təsis konfransı Bakıda keçirilməli idi. Ancaq o vaxt Azərbaycanda hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat hakimiyyəti buna imkan vermədi. Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin. Belə olan halda 500-dən çox nümayəndə, bütün bölgələri təmsil edən vətəndaşlar Naxçıvana gəldilər və Ulu Öndərin rəhbərliyi ilə partiyamızın təsis konfransı keçirildi. Bu, doğrudan da tarixi bir hadisə, Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi idi.

1990-cı illərin əvvəllərində - xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Moskva şəhərində pisləmişdir. Ondan sonra Naxçıvanda işləyərkən müstəqilliyə gedən yolu açdı. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar ona xalqın məhəbbətini daha da artırmışdır.

Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir. Yəni, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir.

Azərbaycan xalqı o vaxt bir daha öz böyüklüyünü, müdrikliyini göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə gedir.

Ondan sonrakı 14 il ərzində **iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. İqtisadiyyat üç dəfədən çox artıb, yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, ondan da az səviyyədədir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini təşkil edir, yəni, ona bərabərdir.**

Azərbaycan beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Daxili siyasətlə bağlı qarşıda duran vəzifələrə gəldikdə, Azərbaycanda bundan sonra da sabitlik təmin ediləcəkdir.

Bizim xarici siyasətimiz həyatda özünü təsdiqləyib və bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Biz növbəti illərdə də müstəqil xarici siyasət aparacağıq, biz bunu indi də aparırıq.

Biz qonşu ölkələrimizlə qarşılıqlı hörmət və inam əsasında çox gözəl və işgüzar münasibətlər qura bilmişik. 30 oktyabr-1 noyabr tarixlərində dörd qonşu ölkənin liderləri ilə mənim görüşlərim olubdur və bu 2-3 gün ərzində həm "Şərq-Qərb", həm "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin işə salınması və inkişafı istiqamətində çox önəmli hadisələr qeydə alınıbdır. Əgər qonşu ölkələrlə bizim gözəl münasibətlərimiz olmasaydı, əlbəttə, bu layihələr haqqında heç danışmağa da dəyməzdi. Bu gün Azərbaycan haqlı olaraq Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilmək əzmindədir və biz bunu edirik. Nəqliyyat sahəsində tranzit ölkə statusunu almaq üçün mütləq qonşularla isti münasibətlərin olmalıdır. Ona görə bu, xarici siyasətimizin əsas prioritetidir və çox sevindirici haldır ki, qonşu ölkələrlə bizim heç bir problemimiz yoxdur. Biz bundan sonra da beynəlxalq təşkilatlarda fəal iştirak edəcəyik.

**İqtisadi sahə ilə bağlı.** İqtisadiyyatın şaxələndirilməsi istiqamətində bundan sonra da ardıcıl siyasət aparılacaq. Bu siyasət öz nəticələrini verir. Bu gün neftdən asılılıq azalır. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bundan sonra uzun illər ərzində iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaqdır. Qeyri-neft sektorunda isə xüsusilə bu il çox ciddi islahatlar aparılıb və ixracımız da kəskin artıb, doqquz ayın nəticələri çox müsbətdir. Kənd təsərrüfatı, qeyri-neft sektoru, qeyri-neft sənayesi sürətlə artır. Bizim valyuta ehtiyatlarımız artır, növbəti illərdə də artmalıdır. Valyuta ehtiyatlarımız bu ilin doqquz ayında 4,5 milyard dollar artıb. Neftin qiymətinin aşağı səviyyədə olmasını nəzərə alsaq, bu, çox böyük nailiyyətdir. Bu nailiyyət, eyni zamanda, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir. Bir çox ölkələr üçün bizim maliyyə vəziyyətimiz əlçatmazdır.

Ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan iki istiqamət üzrə - energetika və nəqliyyat sahələrinin gələcək inkişafı ilə bağlı bizim çox aydın hədəflərimiz var. Neft-qaz sahəsində bütün vəzifələr icra edildi. "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti uzadıldı. "Cənub Qaz Dəhlizi"nin icrası da uğurla gedir. Əminəm ki, gələn il biz TANAP layihəsinin açılışını qeyd edəcəyik.

Bütövlükdə "Cənub Qaz Dəhlizi"nin tamamlanması 2020-ci ildə nəzərdə tutulur.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra əsas səylərimiz onunla bağlı olacaq ki, biz yüklərin həcmini artıraq. Bununla yanaşı, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılmalıdır. Gələcək fəaliyyətimizlə bağlı hər bir sahə üzrə konseptual yanaşma var. Bu planların reallaşması üçün bütün imkanlar var.

Mən bu gözəl yubiley münasibətilə Yeni Azərbaycan Partiyasına yeni uğurlar, qələbələr arzulayıram.

## İlham Əliyev: "Biz Gəncənin timsalında ölkəmizin ümumi inkişafını görürük"

Noyabrın 10-da Prezident İlham Əliyev Gəncə şəhərinə səfərdə olmuş, burada aparılan abadlıq-quruculuq işləri ilə tanış olmuş, bir sıra mühüm ictimai, iqtisadi və mədəni obyektlərin açılışında iştirak etmişdir.

Əvvəlcə dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.

Daha sonra Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak edib.

Təməli Prezident İlham Əliyev tərəfindən 2012-ci ildə qoyulmuş bu mədəniyyət ocağında inşaat işləri 2017-ci ilin noyabrında başa çatdırılıb.

Prezident İlham Əliyevə məlumat verilmişdir ki, altımərtəbəli binada inzibati, məşq, qrim, rejissor və istirahət otaqları, bufet yaradılıb. Burada, eyni zamanda, 1200 nəfərlik konsert və 300 yerlik iclas zalları, 10 loja və 1 VİP loja da tamaşaçıların ixtiyarına veriləcək. Filarmoniyada kitab satışı da həyata keçiriləcək. Binanın üçüncü mərtəbəsinin eyvanında Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Niyazinin və Arif Məlikovun heykəlləri qoyulub. Ərazidə açıq havada yay konsert meydançası, baxış qülləsi, 500 avtomobil yerlik yeraltı dayanacaq və ümumi sahəsi 2 min kvadratmetr olan iki korpusdan ibarət ikimərtəbəli qalereya inşa edilib.

Sonra Prezident İlham Əliyev Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və çıxış etmişdir. Bu günün Gəncənin həyatında çox gözəl və əlamətdar bir gün olduğunu deyən Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının açılışı münasibətilə bütün gəncəliləri ürəkdən təbrik etmişdir. O qeyd etmişdir: "Filarmoniya ən yüksək standartlara uyğun tikilib, həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından ən yüksək standartlara cavab verir. Gəncəyə əlavə yaraşıq verəcək bu filarmoniyanın şəhərin mədəniyyət və incəsənət sahələrinə çox böyük töhfəsi olacaq. Gəncə qədim mədəniyyət mərkəzidir. Gəncədə bütün dövrlərdə ədəbiyyat, incəsənət, memarlıq sənəti inkişaf etmişdir. Gəncənin bugünkü qədim siması onun zəngin tarixini əks etdirir. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaratmış görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Əlbəttə, Gəncə kimi gözəl, qədim şəhərə çox gözəl filarmoniya binası da lazım idi. Gəncəlilər bir neçə il bundan əvvəl bu təkliflə müraciət etdilər və göstəriş verildi ki, filarmoniya tikilsin. Gəncənin, demək olar ki, ən gözəl yerlərindən biri seçildi və çox gözəl memarlıq üslubunda filarmoniya tikildi. Burada iki konsert zalı yaradılıbdır. Böyük konsert zalının oturacaqlarının sayı 1200-dür, yəni, çox böyük konsert zalıdır. Filarmoniyanın ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Onu da qeyd etməliyəm ki, Bakı Filarmoniyası ilə müqayisədə Gəncə Filarmoniyası həm böyükdür, həm daha da əzəmətlidir, möhtəşəmdir, gözəldir. Əlbəttə, belə gözəl binada keçiriləcək tədbirlər, konsertlər, tamaşalar əminəm ki, gəncəlilər üçün çox xoş olacaq. Gəncə qədim mədəniyyət mərkəzidir və öz qədimliyini saxlamaqla bu gün yeniləşir, gözəlləşir".

Prezident kimi Gəncəyə 15-ci dəfə səfər etdiyini vurğulayan İlham Əliyev Gəncənin yeniləşməsi ilə bağlı bir çox addımların atıldığını diqqətə çatdırmışdır. "Bu gün həm qədim, həm müasir Gəncə nəinki Azərbaycanın, regionun mərkəzlərindən biridir. Burada infrastrukturla bağlı bir çox layihələr icra edilib. Qazlaşdırma 100 faiz səviyyəsindədir, elektrik enerjisi tam təmin edilir, içməli su layihəsi icra olunur. Bildiyiniz kimi, bu layihə çox böyük vəsait tələb edən layihədir, texniki cəhətdən də o qədər də asan layihə deyil. Bu layihənin icrası üçün əlavə addımlar atılacaq. Əminəm ki, 2019-cu ildə Gəncədə içməli su problemi də tamamilə aradan qaldırılacaq və sakinlər 24 saat təmiz içməli su ilə təmin olunacaqlar.

Yol infrastrukturunun təkmilləşdirilməsi, müasirləşməsi üçün addımlar atılıb, yenə də atılacaq. Bakı-Gəncə avtomagistralı dünyanın ən yüksək standartlarına cavab verir, dördzolaqlı gözəl, hamar, sürətli bir yoldur. Biz gələn ildən başlayaraq Gəncə-Gürcüstan sərhədi avtomobil yolunu da genişləndirəcəyik. Bizim həm digər şəhərlərimizə, həm də sərhədə gedən bu yol indi ikizolaqlıdır, genişləndirildikdən sonra dördzolaqlı olacaq.

İstəyirəm gəncəlilər onu da bilsinlər ki, Bakı-Gəncə sürət qatarının işə salınması ilə bağlı məsələlərin araşdırılması üçün mənim tərəfimdən göstəriş verilmişdir. Bilirsiniz ki, indi Azərbaycan dünyanın ən müasir qatarlarını alır və bu proses davam etdiriləcək. Birinci sürət qatarları Bakı-Sumqayıt, Bakı-Gəncə qatarları olacaqdır. Dəmir yolunun yenidən qurulması prosesi uğurla gedir. Bakı-Böyük Kəsik dəmir yolu indi də təbii ki, tam istismardadır, ancaq o yolun keyfiyyətinin yaxşılaşdırılması nəticəsində qatarların sürəti təqribən 120 kilometrə bərabər olacaq. Beləliklə, Bakıdan Gəncəyə qatarla çox qısa müddət ərzində və çox komfortlu şəkildə gəlmək mümkün olacaqdır. Bütün bu layihələr ona görə icra edilir və ediləcək ki, biz insanlar üçün daha da yaxşı şərait yaradaq, insanlar daha yaxşı yaşasınlar. İnfrastruktur layihələrinin icrası məhz bu məqsədi güdür. Onların bir çoxu həll olunub, qalan məsələləri də həll edəcəyik.

(davamı 3-cü səhifədə)

PAŞA Bank

17 noyabr - Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edir!

# Nağdsız ödənişlərin genişləndirilməsi üçün əlavə tədbirlər görüləcək

**2017-ci il yanvarın 1-dən «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş, bununla əlaqədar Vergi Məcəlləsində əlavə və dəyişikliklər edilmişdir. Vergilər Nazirliyinin Əlaqələndirmə və idarəetmə departamentinin baş direktorunun müavini Ömər Cəfərovun müsahibəsinin başlıca mövzusu bu barədədir.**

***- Ömər müəllim, Qanunun qüvvəyə minməsindən ötən müddət ərzində onun tətbiqi və əldə edilən nəticələri barədə vəziyyəti ümumi şəkildə necə qiymətləndirmək olar?***

- Bu gün nağdsız iqtisadiyyat dünya ölkələrinin inkişafına təsir göstərən mühüm amillərdəndir. Əksər ölkələrdə nağd ödənişlərin məhdudlaşdırılmasına dair qanunlar qəbul edilmişdir. Almaniya, İtaliya, Fransa, İspaniya, Çexiya, Slovakiya, Belçika, İsveçrə və digər Avropa dövlətlərinin qanunvericiliyində nağd ödənişlərin məhdudlaşdırılmasına və qanunla müəyyən edilmiş tələblərin pozulmasına görə sərt tədbirlər nəzərdə tutulmuşdur. Bu baxımdan, Azərbaycanda da məhdudlaşdırmaların tətbiqi dünya praktikasına tamamilə uyğundur və «Nağdsız hesablaşmalar haqqında» Qanunun qəbul edilməsi bundan irəli gəlir. Qanunun qəbul olunması və tətbiqində əsas məqsəd Azərbaycan Respublikası ərazisində nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatlar və hesablaşmalarda şəffaflığı təmin etmək, vergiyə cəlb olunan dövriyyənin vergi hesabatlarında dəqiq əks etdirilməsinə nail olmaq, vergidən yayınma hallarının qarşısını almaqdır. Qanunun icrasının təmin olunması ödənişlərə dövlət nəzarətinin həyata keçirilməsi, dövlət büdcəsinə ödənilən vəsaitlərin həcminin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

***- «Nağdsız hesablaşmalar haqqında» Qanunun vergi məqsədləri üçün əhəmiyyəti nədədir?***

- Qanunun nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı müddəa ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 mindən artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minmişdir. Sənədə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan ödəyicilər tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 manatdan artıq olan hesablaşmalar üzrə aparılan ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

***- Qanunun tətbiqi ilə bağlı qiymətləndirmələrin nəticəsi necə olmuşdur?***

- 2017-ci ilin ötən 9 ayı ərzində apardığımız qiymətləndirmələr onu göstərir ki, «Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi, eyni zamanda, Vergi Məcəlləsində edilmiş müvafiq əlavə və dəyişikliklər nağdsız iqtisadiyyata keçidə öz mühüm töhfəsini göstərir. Qanunun icrası ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, likvidliyinin təmin edilməsinə, pul dövriyyəsinin tənzimlənməsinə, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin olunmasına, əməkhaqlarının və digər ödənişlərin leqallaşmasına, nəticədə ölkənin beynəlxalq reytinqinin daha da yüksəldilməsinə şərait yaratmışdır.

***- Cari ilin ortalarında nağdsız hesablaşmaların daha da genişləndirilməsi məqsədilə bəzi qanun layihələrinə əlavə və dəyişikliklər də qəbul olundu...***

- Azərbaycan Respublikası Prezidentinin 17 may 2017-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanuna əsasən, Vergi Məcəlləsində də müvafiq dəyişikliklər edilmiş, bəzi anlayışlara aydınlıq gətirilmişdir. Həmin Qanunun tələblərinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiqi ilə bağlı Vergi Məcəlləsinin 58.7-1-ci maddəsi yeni redaksiyada verilmiş və maliyyə sanksiyaları tətbiq edilən subyektlərin dairəsi konkretləşdirilmişdir. Qanunun 3.4-cü maddəsinə əsasən, vergilərin, gömrük rüsumlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının, faizlərin, sığorta ödənişlərinin, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əməkhaqlarının, pensiya, təqaüd, maddi yardım və müavinətlərin, kompensasiya və təzminatların, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsinin, faizsiz pul vəsaitlərinin, digər ayırmaların ödənilməsi və qaytarılmasının, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsinin (xərclənməsi), təhsil haqlarının ödənilməsinin, turizm agentlərinə ödəmələrin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulub. Göründüyü kimi, qanunun əhatə dairəsi kifayət qədər genişləndirilmişdir. Bu səbəbdən, vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə düzgün əməl etməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən sığorta, lizinq, təhsil müəssisələri və tur-agentlərin siyahısı müəyyən edilərək, onlara izahlı bildirişlər göndərilmiş, görüşlər keçirilərək qanunun tələbləri həmin vergi ödəyicilərinə izah edilmişdir.

***- Qanunun tələblərinin pozulması hallarına daha çox hansı sahələrdə rast gəlinir?***

- Vergilər Nazirliyi tərəfindən aparılan məlumatlandırma-təşviqat tədbirlərinə və yaradılmış bütün imkanlara baxmayaraq, bəzi sahibkarlar qanunun tələblərinə riayət etmək istəmir. Bu sahədə qanun pozuntularına daha çox ictimai iaşə, topdan və pərakəndə ticarət obyektlərində rast gəlinir, bəzi sahibkarlar nağdsız hesablaşmalara keçmək istəmirlər. Vergilər Nazirliyinin məqsədi vergi ödəyicilərinə cərimə tətbiq etmək deyil, hər bir ödəyicinin qanuna riayət etməsində, vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsində mövcud qanunvericiliyə uyğun olaraq, bütün tədbirləri həyata keçirməkdir. Amma qanun hamı üçün bərabərdir və onun tələblərinə riayət etməyən hər kəs cəzasını almalıdır.



*Ömər Cəfərov,*
*Vergilər Nazirliyinin Əlaqələndirmə və idarəetmə departamentinin baş direktorunun müavini*

***- Nağdsız ödəmə avadanlıqları olan POS-terminalların tətbiqinin genişləndirilməsi ilə bağlı hansı işlər aparılır?***

- «Nağdsız hesablaşmalar haqqında» Qanuna əsasən, bir sıra dövlət orqanları, biznes qurumları və təşkilatlar qarşısında müvafiq tapşırıqların yerinə yetirilməsinə dair tələblər müəyyən edilmiş, öz fəaliyyətlərini qanunun tələblərindən irəli gələn məsələlərə uyğunlaşdırmaq əsas şərt kimi qarşıya qoyulmuşdur. Bu istiqamətdə bankların da üzərinə mühüm vəzifə düşür və onlar öz fəaliyyətlərini qanunun tətbiqindən irəli gələn məsələlərin həlli istiqamətində qurmağa çalışırlar. Nağdsız dövriyyənin artırılması üçün güclü infrastrukturun yaradılması əsas şərtlərdəndir. Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün zəruri infrastrukturun qurulması istiqamətində 2014-cü ilin fevral ayından başlayaraq ciddi tədbirlər həyata keçirir. Bu sahədə son illər xeyli mühüm dəyişikliklərə nail olunmuş, POS-terminalların quraşdırılmasında əhəmiyyətli nəticələr əldə edilmişdir. 2010-cu ilin sonunda Azərbaycanda fəaliyyət göstərən ticarət, ictimai iaşə və xidmət obyektlərində cəmi 6978 POS-terminal mövcud idisə, 2016-cı ilin dekabr ayında bu rəqəm 10 dəfədən çox artaraq 70.913 ədəd təşkil etmişdir. Dövriyyədə olan kartların sayı da əhəmiyyətli dərəcədə artaraq 5,3 milyonu ötmüşdür. Yəni, indi ölkəmizdə kart bazarında geniş rəqabət üçün hər cür şərait vardır. Hal-hazırda respublika üzrə 68816 aktiv POS-terminal mövcuddur. Bunlardan 41141-i Bakı şəhərinin, 27675-i regionların payına düşür. Hazırda banklar tərəfindən POS-terminalların infrastrukturunda da müvafiq texniki işlər aparılır və təmassız kartların qəbulu üçün yeni imkanlar yaradılır. Bir neçə bank POS-terminallarla bağlı xüsusi korporativ kartların emissiyasına start verib. Bu, ticarət obyektinin sahibinin öz bankına müraciət etmək ehtiyacını aradan qaldırır, ona POS-terminal vasitəsilə aparılmış bütün əməliyyatlar üzrə vəsaiti birbaşa öz kartından əldə etməyə imkan yaradır, ticarət obyektinin işini daha da asanlaşdırır.

***- Bu sahədə müasir texnologiyaların tətbiqi nə səviyyədədir?***

- Əksər banklarda müştərilər «Mobile-banking», «SMS-banking», «İnternet-banking» kimi onlayn xidmətlərdən rahat faydalanırlar ki, bu da nağdsız ödənişlərin inkişafında mühüm amildir. Kommersiya bankları maqnit zolaqlı kartlardan imtina etməklə öz müştərilərinə çip tipli və ya daha müasir təmassız kartlar təklif edirlər. Nağdsız ödənişlər bu prosesdə iştirak edən bütün tərəflər üçün əlverişlidir. Kart vasitəsilə ödənişlərin aparılması, ilk növbədə, ticarət və iaşə obyektləri üçün əhəmiyyət kəsb edir. Bu, onların imicini və nüfuzunu yüksəldir, POS-terminal vasitəsilə aparılan əməliyyatlar müştərilərin sayını çoxaldır. Təcrübə göstərir ki, POS-terminallardan istifadə edən ticarət obyektinin dövriyyəsi 25-30% artır. Nağdsız ödənişlər ticarət obyektləri ilə yanaşı, kart istifadəçiləri üçün də sərfəlidir.

***- Sahibkarların banklardan müəyyən olunmuş limitdən artıq nağd pul vəsaitlərinin çıxarılmasına görə 1 faiz dərəcəsi ilə tutulan sadələşdirilmiş verginin ləğvi barədə təkliflərini necə dəyərləndirərdiniz?***

- Vergi Məcəlləsində (VM) qeyd olunan müddəalara əsasən, hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru VM-in 220.12-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergini hesablamağa, vəsaiti alan şəxsin bank hesabından tutmağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar. Bank hesablarından pul vəsaitlərinin nağd qaydada çıxarılması zamanı 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması vergi orqanında uçotda olan hüquqi şəxslərə və fərdi sahibkarlara, o cümlədən ƏDV qeydiyyatında olan, sadələşdirilmiş verginin ödəyicisi olan, mənfəət və ya gəlir (xüsusi notariuslar istisna olmaqla) vergisinin ödəyicisi olan şəxslərə aid edilir. Fikrimcə, bu, bütün tərəflər üçün ən məqbul mexanizmdir. Bu sahədə bir əsas məqama da diqqət yetirmək lazımdır ki, Vergi Məcəlləsinə edilmiş bu dəyişiklik ən çox vergilərin yığılmasına deyil, ölkədə daimi hərəkətdə olan pul vəsaitlərinin uçotunu aparmağa, hesablaşmalar üzrə şəffaflığı artırmağa və zaman keçdikcə nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəz edilməsinə, bununla da ölkədə bank sisteminin inkişafına səbəb olacaqdır. Vergi orqanları tərəfindən həyata keçirilmiş inzibati tədbirlər nəticəsində 571 ödəyici tərəfindən 117,3 milyon manat vəsait banka bərpa edilmiş, 467 vergi ödəyicisinə 17,9 milyon manat vergi hesablanmış, 795 vergi ödəyicisi barədə isə tədbirlər davam etdirilir.

***- Növbəti ildə nağdsız hesablaşmaların genişləndirilməsi ilə bağlı hansı tədbirlərin görülməsi nəzərdə tutulur?***

- Nağdsız əməliyyatların dövriyyəsinin artırılması dövlətin qarşıya qoyduğu əsas hədəflərdəndir və qarşıdakı illərdə bu istiqamətdə işlərin daha da genişləndirilməsi nəzərdə tutulur. Cəmiyyətdə kartla ödəniş vərdişlərinin artırılması vacibdir. İnkişaf etmiş ölkələrdə plastik kartlarla həyata keçirilən ödənişlərin payı 50-60% arasında, bəzi ölkələrdə 80%-dən çox olsa da, Azərbaycanda bu rəqəm 10-11% həddindədir. Amma ölkəmizdə nağdsız ödənişlərin inkişafı üçün böyük imkanlar mövcuddur. «Nağdsız ödənişlər haqqında» Qanuna uyğun olaraq, bu prosesdə iştirak edən bütün tərəflər, o cümlədən banklar tərəfindən sağlam rəqabətlilik şəraitində müştərilərə daha əlverişli və rahat ödəniş üsullarının təqdim olunması davam etdiriləcəkdir. Yaxın gələcəkdə ölkəmizdə «NFC» (Near Field Communication), «Apple Pay» və «Samsung Pay» kimi ödəniş platformalarının yaradılması üzrə müzakirələr aparılacağı gözlənilir. Nağdsız ödəniş və elektron xidmətlər sahəsində çoxsaylı tədbirlər həyata keçirən Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, Vergilər Nazirliyi və digər dövlət qurumlarının fəaliyyəti bir daha təsdiqləyir ki, qarşıya qoyulmuş strateji vəzifələrin öhdəsindən uğurla gəlinəcək.

***- Vergilər Nazirliyi tərəfindən müvafiq dövlət orqanları, təşkilatlar və sahibkarlarla birgə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə davamlı müzakirələr aparılır, çoxlu rəylər və təkliflər irəli sürülür...***

- Beynəlxalq təcrübəni nəzərə alaraq nağd hesablaşmaların məhdudlaşdırılması və nağdsız əməliyyatların stimullaşdırılması üzrə bəzi təkliflərin nəzərdən keçirilməsi məqsədəuyğundur. Məsələn, belə hesab edirik ki, fiziki şəxslər və hüquqi şəxslər arasında aparılan əməliyyatların müəyyən məbləğdən artıq olan hissəsi (qeyri-rezidentlər üçün fərqli məbləğlər müəyyən edilə bilər) yalnız nağdsız şəkildə reallaşdırıla bilər, əks halda, aparılan əməliyyatın müəyyən faizi məbləğində maliyyə sanksiyası tətbiq edilməlidir. Bu qaydaların pozulmasına görə həm ödəyənin, həm də ödəməni qəbul edənin birgə məsuliyyət daşımasını nəzərdə tutan qanunvericilik aktının qəbul olunması məqsədəuyğundur.

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun I fəslində əsas anlayışlar hissəsinə «malların (işlərin, xidmətlərin) ödəniş forması» anlayışının, II fəslində istehlakçıların hüquqları hissəsinə isə «malların ödəniş formasını sərbəst seçmək hüququ»nun əlavə edilməsi də vacibdir. Bütün dövlət rüsumlarının və kommunal rüsumların yalnız nağdsız qaydada qəbul edilməsi və ya nağdsız ödənişlər üçün məbləğin müəyyən hissəsi həcmində endirimlərin tətbiqi, fiziki şəxslər tərəfindən kommersiya banklarına yerləşdirilən depozitlər üzrə faizlərin onlara nağdsız şəkildə verilməsi də məqsədəuyğundur.

***- Elektron ödəmələrin stimullaşdırılması məqsədilə kredit-debet kart şirkətləri (banklar) ilə razılığa əsasən, kart vasitəsilə ödəmələrdə bonus proqramlarının tətbiq edilməsinə necə baxırsınız?***

- Bu, işin xeyrinə olardı. Məsələn, əməkhaqqı və təqaüd kartlarında olan pul vəsaiti ilə bir ay ərzində edilən nağdsız ödənişlərə görə (müəyyən bir məbləğədək, məsələn, 500 manat) aparılan nağdsız ödənişlərin 3%-i məbləğində mükafatın verilməsi yaxşı nəticə verə bilər. Kredit-debet kartı vasitəsilə ödənişin qəbul olunmasından imtina edilməsinə görə sahibkarlara inzibati cəza tədbirlərini nəzərdə tutan qanunvericilik aktının qəbul olunması da bu qəbildəndir. Bundan əlavə, ictimai nəqliyyat vasitələrində, taksilərdə, özünəxidmət tipli kafelərdə, köşklərdə və digər ticarət obyektlərində nağdsız ödənişlərin aparılması üçün «Paypass» funksiyalı ödənişlərin və mobil telefonlar vasitəsilə aparılan ödənişlərin genişləndirilməsi məqsədilə NFC (Near Field Communication) sisteminin tətbiqi məqsədəuyğun olardı. Yanacaqdoldurma məntəqələrində kredit-debet kartı vasitəsilə ödəmə edən şəxslərə endirim kartının təqdim edilməsi və ödənilən məbləğin kiçik bir faizinin həmin karta yüklənməsi, nağdsız ödəmələr edən istehlakçılar üçün uduşlu lotereyaların keçirilməsi də səmərəli ola bilər. Hesab edirəm ki, müəyyən məbləğdən yuxarı vergilərin yalnız nağdsız şəkildə ödənilməsinin tələb olunması, vergilərin bankomatlar vasitəsilə ödənilməsi imkanının yaradılması, vergilərin elektron ödənilməsinə görə əlavə bank xərclərinin ləğvi və gəlirdən çıxılmasına yol verilən bir sıra xərclərin yalnız nağdsız şəkildə ödənildiyi halda, gəlirdən çıxılmasının mümkünlüyü nəzərə alınarsa, bu, nağdsız ödənişlərin genişlənməsinə öz töhfəsini verə bilər.

# Transxəzər Nəqliyyat Marşrutu ilə yükdaşımanın həcmi açıqlanıb

2018-ci ildə Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ilə ən azı 3 milyon ton yük daşınması planlaşdırılır.

Bunu Bakıda keçirilən "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin (BTNM BA HŞB) ümumi yığıncağında "Qazaxıstan Dəmir Yolları" Milli Şirkətinin prezidenti, Assosiasiyanın sədri Kanat Alpısbayev deyib.

O bildirib ki, cari ilin yekunu üzrə bu göstəricinin ən azı 1,3 milyon ton olacağı gözlənilir:

"Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi əlamətdar hadisədir. İndi biz marşrutun yüklənməsi, yüklərin cəlb olunması, dəhlizin buraxılış qabiliyyətinin artırılması və infrastrukturun təkmilləşdirilməsi üzrə işləri aktivləşdirməliyik. 2017-ci il üçün Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu üzrə daşımaların həcmi 725 min ton müəyyən edilmişdi, amma 10 ayın yekununda plan 80 faiz icra olunub və bir milyondan çox yük daşınıb. İlin yekunlarına əsasən, ən azı 1,3 milyon ton yük daşınması gözlənilir, 2018-ci ildə bu göstərici ən azı 3 milyon ton həcmində nəzərdə tutulur".



# Qida Təhlükəsizliyi Agentliyinin yaradılması vətəndaşların keyfiyyətli məhsullarla təminatına xidmət edəcək

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən institusional islahatların tərkib hissəsi kimi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addım atılıb. Dövlətimizin başçısının 2017-ci il 13 noyabr tarixli Fərmanına əsasən, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə" təsdiq edilib. Qida Təhlükəsizliyi Agentliyinin 2018-ci il yanvarın 1-dən etibarən fəaliyyətə başlaması nəzərdə tutulub.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəhbəri Ramil Hüseyn Trend-ə bildirib ki, dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması hədəflənir. Qida təhlükəsizliyi ilə bağlı vahid idarəetmənin tətbiqi resurslara qənaət edilməsinə, istehlakçı maraqlarının qorunmasına, ixrac və idxal proseslərində sənədləşmənin asanlaşmasına, xarici ölkələrə ixrac edilən qida məhsullarının qida təhlükəsizliyi sertifikatı ilə təmin edilməsinə, idxal olunan qida məhsullarının təhlükəsizliyinə, sahibkarlıq subyektlərində yoxlamaların azaldılmasına və şəffaflaşdırılmasına, genetik modifikasiya olunmuş qida məhsullarının ölkəyə idxalına nəzarətin gücləndirilməsinə səbəb olacaq.

Bununla həm də Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətindəki paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması ilə bağlı tədbirin icrası təmin olunacaq.

Qeyd edək ki, Prezidentin Fərmanı ilə Agentliyin Aparatının işçilərinin say həddi 75 ştat vahidi müəyyən edilib.

Ramil Hüseyn qeyd edib ki, institut qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların aparılması, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsinin həyata keçirilməsi, qida təhlükəsizliyi sahəsində texniki-normativ hüquqi aktların layihələrinin hazırlanması və digər müvafiq fəaliyyətləri həyata keçirəcək. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətə başlaması gələcəkdə ölkənin beynəlxalq reytinqlərdə irəliləməsinə də öz töhfəsini verəcək.

Belə ki, Agentliyin fəaliyyəti ölkənin Qlobal Rəqabətlilik İndeksində "İnstitutlar", "Səhiyyə və ibtidai təhsil", "Əmtəə bazarının effektivliyi" adlı alt indikatorları üzrə mövqeyinin yaxşılaşdırılmasına birbaşa və dolayı təsir edəcək.



(əvvəli 1-ci səhifədə)

Əvvəlki illərdə də Gəncədə sosial layihələrlə, sənaye layihələri ilə bağlı bir çox gözəl işlər görülübdür. Bu gün mən bir neçə obyektin açılışında və təqdimatında iştirak edəcəyəm. Onlardan biri Dövlət Aqrar Universitetinin yataqxana binasıdır. Bu, ikinci bina olacaq. Birinci binanı da mən açmışam, o, 520 yerlik binadır. Bu binada da 500-dən çox tələbə yaşayacaq. Şəhərdəki 1 saylı məktəb də əsaslı təmir olunub, mən oraya da baxacağam. Böyük ticarət mərkəzləri - “Gəncə Moll”, “Grand Qafqaz” kompleksi açılır. Bu iki böyük ticarət obyektində minlərlə insan işlə təmin olunacaqdır. Gəncədə yeni parklar salınıb. Biz yeni muzeyin açılışını da edəcəyik. İndi Gəncə muzeylər şəhəridir. Gəncə Azərbaycan xalqına o qədər görkəmli şəxsiyyətlər bəxş edib ki, onların hamısının Gəncədə muzeyləri olmalıdır və bu məsələ də öz həllini tapır.

Yadımdadır, əvvəlki illərdə Gəncədə müalicə-diaqnostika mərkəzinin, şəhər xəstəxanasının, “ASAN xidmət” mərkəzinin, Olimpiya-İdman Kompleksinin, sənaye obyektlərinin açılışları olub. Görülən bütün bu işlər Gəncənin həm sənaye, həm iqtisadi, həm mədəni həyatında çox mühüm rol oynayan amillərdir.

Növbəti illərdə biz bu günə qədər həllini tapmayan, ancaq həllini gözləyən məsələləri də həll edəcəyik, ilk növbədə, əlbəttə, iqtisadi inkişafla bağlı məsələləri. Gəncədə yeni müəssisələrin yaradılması nəzərdə tutulur, iş yerlərinin açılması istiqamətində böyük işlər görülür və iki önəmli obyektin də tikintisi nəzərdə tutulur. Mən bu gün sizə onu da bildirmək istəyirəm və gəncəlilər də bilsinlər ki, Gəncə Dram Teatrının tikintisi ilə bağlı göstəriş verilib. Çox güman ki, gələn ildən başlayaraq teatrın tikintisi davam etdiriləcək, lazımi vəsait ayrılacaq və artıq bu teatrın tikintisinin nə vaxt başa çatacağı gəncəlilərdən asılı olacaq. Müasir böyük idman sarayının tikintisi də nəzərdə tutulur. Hələ 2000-ci illərin əvvəllərində Azərbaycanın ilk Olimpiya İdman mərkəzlərindən biri Gəncədə tikilmişdir. Artıq o vaxtdan təqribən 15 il keçir. Sonra bu Olimpiya İdman Mərkəzi əsaslı təmir olundu. Ancaq Gəncə əhalisinin və idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar idmana böyük maraq göstərirlər. Ona görə yeni müasir idman sarayının tikintisi də nəzərdə tutulur. Bilirəm ki, gəncəliləri bir məsələ də narahat edir. O da çoxmənzilli binaların təmiri məsələsidir. Şəhərdə 72 belə bina var və bu binaların təmiri də nəzərdə tutulacaqdır”.

Açılış mərasimində Gəncə Dövlət Filarmoniyasının direktoru, Xalq Artisti Samir Cəfərov, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, Gəncə Dövlət Dram Teatrının aktrisası, Xalq Artisti Pərvanə Qurbanova çıxış edərək, göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq bildirmişlər.

****

Prezident İlham Əliyev Gəncədə görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, Mirzə Şəfi Vazeh muzeyinin açılışında iştirak etmiş, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin, eləcə də Gəncə şəhər 1 saylı tam orta məktəbdə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.

****

Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində 2x40 meqavatamper (mVA) gücündə 110/35/10 kilovoltluq (kV) “Yeni Gəncə” yarımstansiyasının açılışında iştirak etmişdir.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, yarımstansiyanın ümumi sahəsi 11 min kvadratmetr təşkil edir. Burada 110, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular, elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatikası, texniki online nəzarət dolabları, açılma və qoşulmaların avtomatik idarəetmə sistemi quraşdırılıb. Yarımstansiya binasının zirzəmisində 35 və 10 kV-luq kabel kanallarının estakadası və rəfləri yerləşdirilib. Bununla yanaşı, yarımstansiyanı qidalandıran 110 kV-luq I və II “Yeni Gəncə” hava xətlərinin 24 kilometrlik hissəsi yenidən qurulub. Gəncə şəhərinin mərkəzi hissəsinin 30 faizdən çoxunun elektrik enerjisi ilə təminatında 110/35/10 kV-luq “Yeni Gəncə” yarımstansiyası mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, “Yeni Gəncə” yarımstansiyasından çıxan 10 kV-luq “Yeni Gəncə” və 10 kV-luq IV “Yeni Gəncə” hava xətlərindən 30 min abonent elektrik enerjisi ilə təchiz olunur.

Bununla yanaşı, hazırda inşa olunan 35/10 kV-luq “Məhsəti” yarımstansiyasını qidalandırmaq üçün “Yeni Gəncə” yarımstansiyasından 3,1 kilometr uzunluğunda 35 kV-luq I və II “Məhsəti” kabel, həmçinin 35/10/6 kV-luq “Sənaye Rabitə” yarımstansiyasının qidalandırılması üçün 35 kV-luq I və II “Sənaye-Rabitə” elektrik verilişi xətləri çəkilib. “Yeni Gəncə” yarımstansiyasının hazırda inşa olunan yarımstansiyalarla əlaqələndirilməsi nəticəsində Gəncə şəhərində ilk dəfə olaraq 110 və 35 kV-luq dairəvi elektrik təchizat sxemi yaradılacaq.

Ümumilikdə, son 2 ildə 89 min abonenti olan Gəncə Elektrik Şəbəkəsinin xidməti ərazisində elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisi verilişində yaranan fasilələrin qarşısının alınması məqsədi ilə 35 kV-luq “Nizami” yarımstansiyası inşa olunub, şəhər ərazisində yüksək gərginlikli 110/35 kV-luq hava xəttinin əvəzinə 3,1 kilometr, aşağı gərginlikli 10/6 kv-luq hava xəttinin əvəzinə isə 75,5 kilometr yeraltı kabel və Gəncə şəhərində 4 kilometr 110 kV-luq, 2 kilometr 35 kV-luq, 20,2 kilometr 10/6 kV-luq hava xətləri çəkilib, 305 kilometrdən çox magistral, 92 kilometrə yaxın abonent xətti özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz edilib. Şəhərdə 75 yeni komplekt transformator məntəqəsi, eyni zamanda, 4211 sayğac quraşdırılıb. Ən son texnologiyalara əsaslanan bu cür layihələr həm Gəncədə, həm də digər bölgələrdə yenidənqurma tədbirlərinin ardıcıl olaraq həyata keçirildiyini bir daha göstərir.

****

Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində “Majestic Palace” otelinin tikintisi ilə tanış olmuşdur.

****

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncədə “Grand Qafqaz” Ticarət Kompleksinin açılışında iştirak etmişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyevə “Grand Qafqaz” Ticarət Kompleksi barədə məlumat vermişdir.

Kompleksin inşasına 2014-cü ilin may ayında başlanılıb, 2017-ci ilin oktyabr ayında isə tikinti işləri başa çatdırılıb. Layihənin həyata keçirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5,0 milyon manat güzəştli kredit ayrılıb.

Ümumi ərazisi 20 hektar, tikintialtı sahəsi isə 83 min 500 kvadratmetr olan kompleksdə hər biri 44 min 100 kvadratmetrlik “modul” tipli beş “Yaşıl market” topdansatış mərkəzi inşa edilib. Burada kənd təsərrüfatı və ərzaq məhsullarının saxlanması üçün ay ərzində min ton məhsul qəbuletmə imkanına malik, ümumi sahəsi 4 min 500 kvadratmetr olan anbar tikilib, 5 min 400 kvadratmetr sahədə soyutma sistemi quraşdırılıb. Kənd təsərrüfatı məhsullarının satışı üçün 9 min kvadratmetr sahədə 2 min 500, o cümlədən meyvə-tərəvəz məhsulları üçün 2 min, ət və süd məhsulları üçün 500 satış yeri yaradılıb.

“Grand Qafqaz” Ticarət Kompleksində iri və xırdabuynuzlu heyvanların və quşların kəsimi, həmçinin diri balıqların satışı üçün 3 min 500 ticarət obyekti tikilib. Burada 1,3 hektar ərazidə avtopark yaradılıb. Ticarət kompleksinin istifadəyə verilməsi nəticəsində 5 min nəfər yeni iş yeri ilə təmin ediləcək.

Prezident İlham Əliyev kompleksin meyvə-tərəvəz satışı sahəsi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına kompleksdə təmsil olunan “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti barədə də məlumat verilmişdir.

****

Prezident İlham Əliyev “Gəncə Mall” Ticarət Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Dövlət başçısına bildirilmişdir ki, Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində yerləşən “Gəncə Mall”-un inşasına 2014-cü ilin avqust ayında başlanılıb və 2017-ci ilin oktyabr ayında tikinti işləri başa çatdırılıb. Bu ticarət kompleksinin ümumi sahəsi 26 min 293 kvadratmetr, ticarət sahəsi isə 11 min kvadratmetrdir. Səkkiz mərtəbədən ibarət mərkəzin binasının dörd mərtəbəsi zirzəmi səviyyəsindədir. Zirzəmilərin 1-ci, 2-ci və 3-cü mərtəbələrində 411 avtomobil tutumlu yeraltı dayanacaq yaradılıb. Bundan başqa, burada supermarket də fəaliyyət göstərir. Ticarət kompleksində şəhər sakinlərinə və qonaqlara bir çox xidmətlərin göstərilməsi nəzərdə tutulur.




# Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur

Bunu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 14-də Parisdə, Royal Pavilyonda Azərbaycanın paytaxtı Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması münasibətilə qəbulda demişdir. Onun sözlərinə görə, Azərbaycan 2000-ci ildən etibarən “Expo” hərəkatının fəal üzvüdür. Ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır. Bu sərgilər qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirir. Buna görə də əminəm ki, Azərbaycan bu universal platformaya ev sahibliyi etmək üçün ən yaxşı məkanlardan biridir.

Mehriban Əliyeva demişdir: “Bizim pavilyonlarımız son üç sərgidə - 2015-ci ildə pavilyonumuzu üç milyondan çox insanın ziyarət etdiyi Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə Astanada mükafatlar qazanıb. Beynəlxalq Sərgilər Bürosunun işinə sadə töhfəmizin bu cür qiymətləndirilməsindən qürur duyuruq. Əsrlər boyu ölkəmiz qitələrin və sivilizasiyaların kəsişməsində yerləşib. Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan Şərq ilə Qərb, Şimal ilə Cənub arasında ticari, siyasi və mədəni körpü rolunu oynayır. İki min il ərzində qədim İpək Yolu bugünkü Azərbaycandan keçib. Ümumdünya Sərgisi kimi bu yol bilik və bacarıqların paylaşılması üçün əhəmiyyətli bir dəhliz olub. Bu, ölkəmizin tarixini, mədəniyyətini və tolerant imicini formalaşdırıb.

Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur. Biz hazırda dünyanın üzləşdiyi bir çox ciddi problemlərin daha səmərəli həll olunmasına imkan verəcək müxtəlif mədəniyyətlərə və dinlərə mənsub olan insanlar arasında daha yaxşı anlaşmanı təşviq etmək üçün beynəlxalq platforma yaradırıq. Tariximiz və bugünkü reallıq bunun mümkünlüyünü sübut edir”.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxışının sonunda qeyd etmişdir ki, Bakı sərgisi 26 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərin tanıdılması üçün daha bir imkan olacaqdır.



# AZƏRBAYCANININ MÜASİR SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏHLİLİ VƏ PERSPEKTİVLƏRİ

XXI əsrdə ölkəmiz qarşısında duran ən qlobal problemlərdən biri sosial-iqtisadi inkişafın yaxşılaşdırılmasıdır. Belə ki, son on il ərzində Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələr əldə olunmuşdur. Bunların da əsas səbəbi Azərbaycanda davamlı inkişafın təmini üzrə böyük iqtisadi layihələrin həyata keçirilməsidir. İqtisadiyyatın innovasiya yolu ilə inkişafı innovasiyanın təşviqi probleminin həlli, innovativ sahibkarlığın formalaşması və inkişafı, əsaslı islahatlar və bu sahədə kadr çatışmazlıqlarının aradan qaldırılması ilə bağlıdır. Burada ən başlıca səciyyəvi cəhət odur ki, Azərbaycan Respublikasının gələcək inkişafı mühüm dövlət proqramı olan "Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"ndə öz həllini tapacaqdır.

Azərbaycanın son illər əldə etdiyi sosial-iqtisadi uğurlar nüfuzlu beynəlxalq reytinq qurumlarının hesabatlarında da öz əksini tapıb. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda Azərbaycan 138 dövlət arasında 35-ci yerdədir (*MDB ölkələri sırasında isə 1-ci yerdə*). Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən "Doing Business 2018" hesabatında isə ölkəmiz 57-ci pillədə qərarlaşıb. Bu hesabatda Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə "Biznesə başlama" göstəricisi üzrə dünyada ilk beşliyə daxil olub və ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi qeyd edilib.

2017-ci il yanvarın 30-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışında vurğulamışdır ki, bu gün Azərbaycanın qarşısında duran ən mühüm strateji məqsəd ölkəmizin müstəqilliyini bundan sonra da gücləndirmək və respublikamızı dünyanın ən inkişaf etmiş, rəqabətədavamlı dövlətləri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regiondakı sürətli inkişaf davam etdiriləcəkdir.

Bu sürətli inkişafı davam etdirmək üçün Azərbaycanın 2014-2023-cü illərdə sosial-iqisadi inkişaf konsepsiyası qəbul edilmişdir. Həmin konsepsiyaya görə, 2014-2023-cü illərdə respublikamızda ÜDM 2,0 dəfə artmalıdır. Eyni zamanda, respublika iqtisadiyyatının və onun ayrı-ayrı sahələrinin inkişafının yol xəritəsi hazırlanmışdır. Digər tərəfdən 2014-cü ildən başlayaraq Respublika Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatında dərin islahatlar həyata keçirilir. Sənayenin rəqabət qabiliyyətli və davamlı inkişafı üçün Sumqayıt, Mingəçevir, Salyan, Neftçala, Masallı, Bakı şəhərlərində müasir texnoparklar, sənaye zonaları yaradılır, regionlarda aqrar-sənaye kompleksinin ixtisaslaşmış sahələrinin inkişafının sürətləndirilməsi istiqamətində əsaslı tədbirlər həyata keçirilir.

Hazırda ölkədə strateji yol xəritələrinin gerçəkləşdirilməsi istiqamətində geniş miqyaslı tədbirlərin həyata keçirilməsinə başlanmışdır. 06 dekabr 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında qeyq edilir ki, əsası Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, uzumüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə, əsas sosial-iqtisadi göstəricilər üzrə mühüm nailiyyətlər əldə olunmuşdur. (cədvəl 1)

**Azərbaycanın sosial-iqtisadi göstəricilərinin təhlili (əvvəlki illərə nisbətən %-lə)**

Cədvəl 1

| Göstəricilər | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 126,4 | 105,0 | 102,2 | 105,8 | 102,8 | 101,1 | 111,1 |
| Sənaye istehsalı | 139,5 | 102,6 | 97,7 | 101,8 | 99,3 | 102,4 | 106,8 |
| Kənd təsərrüfatı məhsulları | 107,5 | 98,8 | 106,6 | 104,9 | 97,4 | 106,6 | 103,1 |
| Əsas kapitala investisiyalar | 116,6 | 121,2 | 118,5 | 115,1 | 98,3 | 88,9 | 91,3 |
| İxrac (cari qiymətlərlə) | 120,2 | 106,9 | 95,1 | 100,7 | 99,2 | 99,9 | 94,5 |

Mənbə: http://www.stat.gov.az

Cədvəldən göründüyü kimi, son illərdə ölkə üzrə müasir sosial-iqtisadi inkişafın indiqatoru olan ümumdaxili məhsulun ümumi həcmində dinamik artım nümayiş edilmişdir və 2016-cı ildə 2015-ci ilə nisbətən artmışdır. Lakin ölkə üzrə ixracın dinamikasında müsbət dəyişiklik əldə edilməmişdir. Bu, mövcud qiymətlərlə bağlı olmuşdur. Bütün bunlar onu göstərir ki, ölkədə hələ də istifadə olunmamış daxili ehtiyatlar mövcuddur.

Hazırda ölkənin sosial-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasında müasir sənayenin inkişafının rolu böyükdür. Belə ki, respublikada sənayenin iqtisadiyyatdakı xüsusi çəkisi dünya üzrə orta göstəricini 30% üstələyir. BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının məlumatlarına görə, Azərbaycan Avropada sənayenin ümumdaxili məhsuldakı payına görə ilk yerlərdən birini tutur. Bu inkişafın sürətləndirilməsinin vacibliyi strateji yol xəritəsində bir daha öz təsdiqini tapmışdır. Ağır sənaye və maşınqayırmanın inkişafına dair strateji yol xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

Bu mühüm sənəddə bildirilir ki, əsas müddəaları ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı son on ildə sürətlə inkişaf etmiş, iqtisadiyyatın diversifikasiyası neft amilindən asılılığı azaltmış, iqtisadi artımda qeyri-neft sektorunun payı yüksəlmişdir. 2008-ci ildən başlayaraq dünyada gedən iqtisadi proseslər yerli müəssisələrin rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının dinamik inkişafını və innovasiyalı iqtisadiyyatın lokomativi olan insan kapitalından səmərəli istifadəni gerçəkləşdirmək istiqamətində islahatların daha da dərinləşdirilməsini zəruri etmişdir. Bununla əlaqədar ölkə iqtisadiyyatının prioritet sektorlarının, beynəlxalq məsləhətçilər də cəlb olunmaqla, hərtərəfli təhlili nəticəsində sahəvi yanaşmanın tətbiqi və müvafiq sahələr üzrə spesifik təkliflərin hazırlanması üçün radikal iqtisadi islahatlar əsasında ardıcıl işlər görülmüşdür. Bu isə formalaşmaqda olan sənaye potensialının strateji yol xəritəsinin hədəflərinə uyğun qiymətləndirilməsinə imkan verir.

Hazırda sənaye potensialının əsası olan **Sumqayıt Kimya Sənaye Parkında** ümumi investisiyaların həcmi 1,1 milyard ABŞ dolları təşkil edən 9 müəssisəyə rezident statusu verilib. Bunlardan polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edən "Azertexnolayn" Zavodu 2013-cu ildə fəaliyyətə başlayıb və burada 750 nəfərdən çox işçi çalışır. Artıq zavodda istehsal olunan məhsulun yarıdan çoxu ixrac edilib. Bundan başqa, 2017-ci ildə yüksək təzyiqə davamlı xortum və fitinqlər istehsal edən "MST Engineering Services", tikinti məhsulları və qatqıları istehsal edən, İsveçrənin beynəlxalq miqyaslı kimya şirkəti olan "SİKA" MMC, yüksək keyfiyyətli sintetik və yarısintetik sürtkü yağları istehsal edən "Alco Lubricant Company", pestisid və aqrokimyəvi məhsullar istehsal edən "Aqrokimya Azərbaycan" müəssisələri fəaliyyət göstərir. 2018-ci ildə isə daha 3 müəssisə - polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən "SOCAR Polymer", ferrorintlər istehsal edən "Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti", Float texnologiyası əsasında şüşə lövhələr istehsal edəcək "AzerFloat" fəaliyyətə başlayacaq. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerlərinin açılması nəzərdə tutulur. SKSP-yə yeni rezidentlərin cəlb edilməsi istiqamətində işlər davam etdirilir. Hazırda 2 müəssisənin sənaye parkına rezident qəbul olunmaq barədə müraciətinə baxılır.

**Balaxanı Sənaye parkında** fəaliyyət göstərən 5 rezident tərəfindən işlənmiş mühərrik yağlarının emalı, plastik (*PET*) butulkaların təkrar emalından PET qırıntılarının, tullantı kağızlardan istifadə etməklə çap-poliqrafiya məhsullarının istehsalı, təkrar emal olunmuş plastik materiallardan irihəcmli müxtəlif məhsulların istehsalı, taxta-ağac məmulatların emalı sahələrində 5 müəssisə yaradılmışdır. Artıq bu sənaye parkı Respublika Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Bu isə sənaye potensialının strateji yol xəritəsinin tətbiqi şəraitində artırılmasına tam imkan yaratmış olacaqdır.

**Neftçala Sənaye Zonasında** ümumi investisiya qoyuluşu 49 milyon manatdan çox olan və 600-dən çox yeni iş yerlərinin yaradılmasını təmin edəcək 15 layihənin icrası planlaşdırılır. Sənaye zonasında 5 müəssisə - karton stəkan istehsal edən "Sun Rise Production", polietilen boru istehsal edən "Toğrul-2008", kənd təsərüffatı təyinatlı qurğuların istehsalı müəssisəsi "Petroqeoaz", modul tipli məktəb binalarının istehsalı ilə məşğul olan "Providence Doytch Limited" və balıq yemi istehsal edən "Kəhf" şirkətləri, avtomobil istehsal edən "Azeurocar" fəaliyyətə başlamağı planlaşdırır. Digər layihələrin icrası istiqamətində işlər görülür.

Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 13 iyun tarixli sərəncamı ilə yaradılmış **Masallı Sənaye Zonasının** təşkili ilə bağlı işlər intensiv olaraq davam etdirilir. Sahibkarların sənaye zonasına marağı böyükdür. Belə ki, sahibkarlar tərəfindən artıq ümumi dəyəri 30 milyon manatdan çox olan 33 layihə təklifi təqdim olunub. Bu layihələr əsasən, mebel istehsalı, avtomobil təmiri, alüminium və plastik qapı-pəncərə istehsalı, müxtəlif növ tikinti materiallarının istehsalı sahələrini əhatə edir. Bununla yanaşı, Ağstafada özəl təşəbbüs əsasında yaradılmış sənaye zonası fəaliyyətə başlayıb. Dövlət başçısının tapşırığına uyğun olaraq, digər rayonlarda da sənaye zonalarının yaradılması istiqamətində iş aparılır.

2016-cı ildə dövlət başçısı tərəfindən təməli qoyulmuş **Mingəçevir Sənaye Parkında** yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması ilə 150-200 milyon dollar investisiya qoyuluşu və 5500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Parkda yerləşən zavodlar üçün xammal bazası yerli məhsullar hesabına təmin ediləcək, xammaldan son məhsuladək istehsal zənciri qurulacaq.

**Qaradağ Sənaye Parkının** rezidenti - Bakı Gəmiqayırma Zavodu ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri, ümumilikdə, dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. 2016-cı ildə zavodda hər biri 80 sərnişin tutumuna malik "Üfüq", "Zəfər" və "Turan" sərnişin gəmiləri istismara verilib. İndiyədək isə müəssisədə 50 tonluq dartıcı qüvvəyə malik yedək gəmisi tikilib. Həmçinin, zavod 6-cı nəsil yarımdalma qazma qurğusunun pantonlarının inşasını başa çatdırıb və sifarişçiyə təhvil verib. Zavodun ən böyük cari sifarişi isə BP şirkəti üçün ümumi dəyəri 378 milyon ABŞ dolları olan "Xankəndi" Sualtı Tikinti Gəmisinin layihələndirilməsi və tikintisidir.

**(davamı gələn sayımızda)**

**Hacıyev Fazil, Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının i.e.d., prof.**

# UNEC-də elmi konfrans: "Azərbaycan-Türkiyə diplomatik əlaqələri – 25"

Noyabrın 8-də UNEC-də Azərbaycan-Türkiyə diplomatik əlaqələrinin 25-ci ildönümünə həsr olunan elmi-praktik konfrans keçirilib.

Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Türkiyə Respublikası Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzi və UNEC-in birgə təşkilatçılğı ilə keçirilən konfransda Türkiyənin ölkəmizdə fəaliyyət göstərən ictimai və elmi qurumlarının nümayəndələri, iş adamları iştirak edib.




UNEC-in rektoru, professor Ədalət Muradov ulu öndər Heydər Əliyevin türk dünyasını birləşdirmək istiqamətində gördüyü işlərə diqqət çəkərək, Bakı-Tbilisi-Qars dəmir yolunun məhz bu uzaqgörən siyasətin özəyini təşkil etdiyini bildirib. Rektor BTQ-nin hər iki qardaş ölkə arasında iqtisadi sərhədləri aradan qaldırdığını və iqtisadi coğrafiyanı genişləndirdiyini qeyd edib. Ölkələr arasındakı iqtisadi və təhsil sahəsindəki əlaqələrdən bəhs edən rektor UNEC-in Azərbaycanda türk dilində təhsil verən yeganə universitet olduğunu bildirərək, əməkdaşlığın bu istiqamətdə daha da genişlənəcəyinə əminliyini ifadə edib. UNEC rektoru türk ölkələri iqtisadiyyatından bəhs edən vahid dərsliyin hazırlanmasının vacibliyini vurğulayıb. O, türk dünyasının tanınmış simalarının adına mükafat təsis edilməsini də təklif edib.

Azərbaycan-Türkiyə diplomatik əlaqələrindən danışan Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral bu dostluğun tarixi köklərə, milli-mənəvi dəyərlərə sıx bağlı olduğunu bildirib. Səfir Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin perspektivlərindən də danışıb, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını yüksək dəyərləndirib.

Türkiyə Respublikası Xarici İşlər Nazirliyi yanında Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru, dosent Mesut Özcan ötən 25 illik dövr ərzində dövlətlərimiz və xalqlarımızın çiyin-çiyinə mürəkkəb, tarixi hadisələrlə zəngin uğurlu yol qət etdiyini vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri kədərimizdir" kəlamlarının hər iki dövlət arasında əlaqələrin sarsılmaz özülünü təşkil etdiyini bildirib.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Samsun millət vəkili, TBMM Xarici əlaqələr Komissiyasının üzvü Hasan Basri Kurt ötən illər ərzində "bir millət-iki dövlət" prinsipinin dünyada bənzəri olmayan Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrini əhatə etdiyini bildirib. Dostluq və qardaşlıq üzərində qurulan əlaqələrin bu gün strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini diqqətə çatdırıb.

SAM-ın şöbə müdiri Cavid Vəliyev, Türkiyə SAM-ın idarə rəisi Çiydem Tenker Koksal, UNEC-in Beynəlxalq iqtisadiyyat kafedrasının müdiri, professor İrşad Kərimli, Türkiyənin Qazi Universitetinin müəllimi Bekir Tümən Somuncuoğlu, İran Araşdırmalar Mərkəzinin direktoru Haqqı Uyqur çıxış edərək, bu gün hər iki ölkə başçısı tərəfindən uğurla inkişaf etdirilən dövlətlər arasındakı yüksək səviyyəli strateji müttəfiqlik əlaqələri, xalqlarımızın tarixi qardaşlıq münasibətləri, beynəlxalq və regional təşkilatlarda qarşılıqlı dəstək, transmilli layihələrin həyata keçirilməsi istiqamətində birgə səylərin xalqlarımızın rifahına, o cümlədən regionda sülh, sabitlik və tərəqqinin təmin olunmasına xidmət etdiyini bildiriblər.

# Pan Avropa Universitetinin professoru UNEC-də

Slovakiyanın Pan Avropa Universitetinin (Pan-European University) professoru Antonin Koraus "Erasmus+" mübadilə proqramı çərçivəsində UNEC-də səfərdədir. UNEC-in Beynəxalq əməkdaşlıq departamentinin rəhbəri Anar Kazımovla professor A. Korausun görüşündə mövcud və gələcək əməkdaşlıq üzrə danışıqlar aparılıb, birgə layihə və proqramların işlənib hazırlanması, UNEC müəllimləri ilə birgə elmi tədqiqatlar aparmaq müzakirə olunub. UNEC-in infrastruktur və tədris prosesinin təşkili ilə tanış olan qonaq məmnun qaldığını bildirərək, birgə əməkdaşlıq üçün bir çox inkişaf perspektivlərinin olduğunu qeyd edib. Beş gün davam edən səfər çərçivəsində professor UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbi və SABAH qruplarında "Maliyyə sektorunda təhlükəsizlik və saxtakarlıq" və "V4-də (Visegrad Group - Çex Respublikası, Macarıstan, Polşa və Slovakiya) maliyyə strategiyası və marketinqi" mövzularında mühazirə oxuyub. Professor çıxışında beynəlxalq bankçılığın müqayisəli perspektivinə və dolayısı ilə ikitərəfli müxtəlif konsepsiyasına xüsusi diqqət ayırıb.



Sonda auditoriyanın fikrini dinləyən professor A.Koraus UNEC tələbələrinin bilik və bacarığını yüksək qiymətləndirib.

# В Азербайджане могут расширить льготы для резидентов промпарков и зон



Министерство экономики Азербайджана может рассмотреть возможность расширения списка преференций, предоставляемых для резидентов промышленных парков и зон, сказал Trend заместитель министра экономики Ниязи Сафаров.
"В настоящее время мы совместно с Научно-исследовательским институтом экономических реформ ведем соответствующую оценку, чтобы изучить насколько эффективным может быть повышение объема, качества или числа преференций", - сказал замминистра.
По словам Сафарова, здесь, в том числе стоит принять во внимание особенности работы каждого предприятия, которые действуют в промышленных парках и зонах страны.
На сегодня все резиденты промышленных парков, зон, парков высоких технологий и агропарков на семь лет освобождены от налога на недвижимость, земельного налога, налога на прибыль и уплаты НДС на ввозимое оборудование. Также всем инвесторам гарантируется репатриация прибыли после уплаты налогов.
В настоящее время в Азербайджане создано пять промышленных парков (Сумгайытский химико-промышленный парк, Гарадгский, Балаханский, Мингячевирский и Пираллахинский промышленные парки) и три промышленные зоны (Нефтчалинская, Гаджигабульская и Масаллинская промышленные зоны). В Азербайджане также функционирует ряд агропарков и парков высоких технологий. Тем не менее, правительство постоянно исследует возможность создания новых промышленных парков или зон в различных регионах страны.

# В Азербайджане предложено создание комиссии по координации деятельности бизнес-инкубаторов



Министерство экономики Азербайджана предлагает создать комиссию по координации деятельности бизнес-инкубаторов. Об этом во вторник сказал заместитель министра экономики Азербайджана Сахиб Мамедов на мероприятии «Развитие бизнес-инкубаторов, предпринимательского образа мышления и стартапов» в Баку.
Торгово-экономические отношения между Азербайджаном и Бразилией должны быть доведены до уровня политических
Политические связи между Азербайджаном и Бразилией находятся на высоком уровне, и сегодня есть необходимость в доведении до их уровня торгово-экономических отношений.
Об этом в понедельник сказал министр экономики Шахин Мустафаев на встрече с послом Бразилии в Азербайджане Сантьяго Луисом Бенто Фернандесом Алкасаром.
Как говорится в сообщении минэкономики, Мустафаев проинформировал дипломата о возможности сотрудничества в сферах сельского хозяйства, туризма, спорта и других сферах, важности налаживания связей между предпринимателями, возможности использования Бразилией транспортного коридора Север-Юг.
На встрече было отмечено, что подписанные между странами меморандумы о взаимопонимании в сферах торгового и инвестиционного сотрудничества важны с точки зрения расширения торгово-экономических связей. Министр Шахин
Отметив, что Азербайджан является для Бразилии стратегической страной, расположенной между Востоком и Западом, посол Луис Бенто Фернандес Алкасар высоко оценил сдачу в эксплуатацию железной дороги Баку-Тбилиси-Карс и подчеркнул важность проекта в расширении транспортных связей.

# Шведская делегация высоко оценила достижения Azercell Telecom.



Официальная делегация Швеции, во главе с господином Оскаром Стенстрёмом, государственным секретарем при Министре по Связям и Торговле и Министерство Иностранных Дел королевства, 8 ноября 2017 года посетила офис ведущего оператора мобильной связи Азербайджана - Azercell Telecom. Основной целью визита было всестороннее ознакомление с бизнесом и перспективами развития Azercell – представляющей крупнейшие шведские инвестиции в Азербайджане.
Государственный секретарь господин Оскар Стенстрём и госпожа Ингрид Терсман, Посол Швеции в Азербайджане встретились с руководительским составом Azercell во главе с господином Вахидом Мурсалиевым, президентом Azercell Telekom.
Господин В. Мурсалиев выразил благодарность за визит официальной делегации и подчеркнул важность крепких деловых связей и опыта сотрудничества между Azercell и его основным инвестором- компанией Telia, которая внесла большой вклад в устойчивое развитие мобильного оператора. Шведский телекоммуникационный лидер и главный инвестор Azercell компания Telia была представлена на встрече господином Шеллом Линдстромом, Ведущим Советником при Президенте компании Telia.
Делегация ознакомилась с историей Azercell, общим обзором бизнеса, инвестициями в телекоммуникационный сектор страны и инновациями, внедренными компанией в азербайджанский рынок, а также с основными планами развития компании в соответствии с последними тенденциями отрасли. Обсуждения также касались вклада Azercell в культуру ответственного ведения бизнеса, этических норм и их соблюдения, устойчивого развития и корпоративной социальной ответственности, с акцентом на рассмотрение перспективы расширения сотрудничества в сфере инновационных технологий, предпринимательства и человеческих ресурсов.
Господин Оскар Стентстрём, государственный секретарь при министре по связям и торговле с ЕС, поблагодарил команду Azercell за теплый прием и подчеркнул, что Azercell успешно демонстрирует пример компании, развивающей бизнес в самой востребованной сфере будущего – телекоммуникации, предлагая пользователям интернет-сервисы, являющиеся важнейшим ресурсом глобальной экономики.

# В МИРЕ

## Глава Европарламента оценил долг Великобритании при Brexit в €60 млрд.



Великобритания должна выплатить Европейскому союзу при выходе страны из сообщества как минимум €60 млрд, Об этом заявил председатель Европарламента Антонио Таяни в опубликованном в понедельник интервью медиагруппе Funke.
"По моему мнению, это должны быть как минимум €60 млрд", - сказал он, отметив, что в случае, если Лондон откажется выплатить эту сумму, разницу придется покрывать гражданам других стран ЕС.
Глава ЕП также особо подчеркнул, что Brexit к установленному сроку - марту 2019 года - "возможен только в том случае, если удастся до конца текущего года достигнуть рамочного соглашения по трем важным пунктам" - по обеспечению прав граждан стран ЕС в Великобритании, по вопросам границы между Ирландией и Северной Ирландией и выплат Евросоюзу.
Только на основе такого рамочного соглашения ЕС может вести переговоры о будущих торговых отношениях с Соединенным Королевством, предупредил Таяни.
"Британцы должны нам сообщить, к каким отношениям с ЕС они стремятся - по норвежской или швейцарской модели. Никто этого не знает до сегодняшнего дня", - подчеркнул он.
Глава ЕП высказал мнение, что большинство британцев сейчас считают ошибкой решение о выходе из ЕС. "Даже в британском правительстве наступило отрезвление, даже если официально это и не признают", - добавил он.

## SOCAR интересуется покупкой завода «Лукойл» в Италии



Азербайджанская госкомпания SOCAR проявляет интерес к приобретению нефтеперерабатывающего комплекса ISAB в Италии, принадлежащего российской компании «Лукойл», сообщают в понедельник российские СМИ со ссылкой на главу «Лукойл» - Вагита Алекперова.
Алекперов сообщил, что помимо SOCAR интерес к покупке итальянского нефтеперерабатывающего комплекса ISAB проявляют национальные компании Ирана и Алжира.
«Это национальные компании, Иран, в первую очередь, Алжир также проявляют интерес. У меня последние новости, что в том числе и SOCAR проявляет интерес к этому заводу. Сегодня это только начальная стадия», - сказал Алекперов, отвечая на вопрос, какие иностранные компании заинтересованы в активе.
По словам Алекперова, у «Лукойл» имеется много предложений, и сегодня компания рассматривает все варианты.
«Сегодня завод находится в очень хорошем состоянии. За эти годы компания инвестировала достаточно серьезные средства. Работают все установки, даже вводятся новые объекты после модернизации. Поэтому нас ничего не подталкивает к срочности принятия решения, но мы ведем переговоры с заинтересованными сторонами, особенно с теми, которые могли бы предоставить нам возможность интегрироваться в новые проекты», - добавил Алекперов.
Ранее Алекперов рассказывал, что покупкой нефтеперерабатывающего комплекса ISAB, принадлежащего «Лукойлу», интересуются крупные переработчики США, международные инвестиционные фонды и национальная компания одного из государств Персидского залива.
SOCAR в настоящее время является единственным производителем нефтепродуктов в Азербайджане, имея в активе Бакинский НПЗ имени Гейдара Алиева, а также завершает строительство НПЗ Star в турецком Измире.

## Турция готова обновить соглашение о Таможенном союзе с ЕС



Турция готова обновить соглашение о Таможенном союзе с ЕС. Об этом сообщили Trend во вторник в турецком министерстве по делам ЕС.
Как отметили в министерстве, обновление соглашения о Таможенном союзе между ЕС и Турцией также в интересах Евросоюза.
Комментируя вопрос о перспективах отношений Турции и ЕС, в министерстве сказали, что существующие между сторонами проблемы связаны с тем, что Евросоюз применяет по отношению к Анкаре двойные стандарты.
Отметим, что Турция единственная страна, которая, не являясь полноправным членом ЕС, находится с ним в Таможенном союзе. Турция может экспортировать в страны Евросоюза около 15 000 товарных позиций.
Переговоры по обновлению Таможенного союза между Анкарой и ЕС начинались 13 июня в Брюсселе.
Отметим, что ранее правительство ФРГ потребовало, чтобы Евросоюз оказал финансовое давление на Анкару. Кроме того, в правительстве ФРГ полагают, что ЕС должен заморозить переговоры с Турцией по модернизации Таможенного союза.
Анкара добивается пересмотра условий Таможенного союза с ЕС, согласно которым Турция должна открыть свои рынки для третьих стран, которые заключат соглашение о свободной торговле с ЕС. В то же время турецкие товары не смогут выходить беспошлинно на рынки третьих стран, так как Турция не является членом ЕС.
Согласно данным Института статистики Турции (TUİK), 64 процента зарубежных инвестиций в Турцию приходятся на страны ЕС.
Из более чем 50 тысяч иностранных компаний, действовавших на конец прошлого года в Турции, 23 тысячи - компании из стран ЕС.
Турция входит в пятерку основных внешнеторговых партнеров ЕС. Товарооборот между Турцией и ЕС по итогам 2016 года составил 145,864 миллиарда долларов, что на 2,2 процента превышает показатель аналогичного периода позапрошлого года.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.



# REGİONAL İNKİŞAF SİYASƏTİNİN UĞURLU NƏTİCƏLƏRİ

Regionların sosial-iqtisadi inkişafı ölkəmizin uğurlu inkişafından xəbər verir. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları nəticəsində bu gün bütün rayonlarda inkişaf, tərəqqi görürük, insanların işlə təmin olunması məsələsi öz həllini tapır və işsizlik çox aşağı səviyyəyə düşüb.

Son illərdə görülən tədbirlər nəticəsində işsizliklə bağlı daha da önəmli addımlar atılır və insanların məşğulluğu artır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Bizim kənd təsərrüfatı məhsullarımızın ixrac potensialı çoxşaxəlidir. Çünki bizim 9 iqlim zonamız var. Bizdə həm meyvə-tərəvəz, həm tütün, pambıq, üzüm, spirtli içkilər, fındıq, badam, çay, sitrus meyvələri, yəni, hər şey var. Sadəcə olaraq, gərək biz bu təbii imkanlardan düzgün istifadə edək, istifadə edirik və son illərdə kənd təsərrüfatı sahəsində çox böyük inkişaf var. Biz indi ənənəvi sahələri bərpa etməklə daha da böyük potensial yaradacağıq".

Məlum olduğu kimi, Azərbaycanın bütün bölgələrində aqrar sahələr inkişaf edir. Çünki bu gün kənd təsərrüfatının inkişafı həm respublika, həm də bölgələr üçün böyük əhəmiyyət daşıyır. Məhz bu səbəbdən son illər ərzində bölgələrdə yaradılan aqroparkların, fermer təsərrüfatlarının, istixanaların sayı xeyli artmışdır. Rayonda ticarətin nümunəvi təşkili üçün lazimi şəraitin yaradılması məqsədilə əsaslı işlər görülür. Daha müasir ticarət xidməti təşkil etmək məqsədilə sahibkarlar və iş adamları tərəfindən müasir tələblərə cavab verən ticarət və məişət xidməti obyektləri tikilir. İaşə obyektlərində, ərzaq və sənaye mağazalarında monitorinqlər aparılır, vaxtı keçmiş, köhnə məhsulların satışı dayandırılır, cavabdeh şəxslərin məsuliyyətinin artırılması istiqamətində tədbirlər həyata keçirilir. Rayon büdcəsinin gəlirlər hissəsi 2 milyon 813 min manata qarşı 2 milyon 826 min manat icra olunmuşdur. Fiziki şəxslərdən gəlir vergisi 100,1 min manat, hüquqi şəxslərdən mənfəət vergisi 66 min manat, əmlak vergisi 141,4 min manat, dövlət rüsumu 33,8 min manat, sadələşdirilmiş vergi 99 min manat nəzərdə tutulduğundan artıq icra edilmişdir.

Bu gün inkişaf proqramı dağlıq Şirvan iqtisadi rayonlarında uğurla həyata keçirilir. O cümlədən, bu, İsmayıllı rayonunda da hiss olunur. Rayonda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məqsədilə əhəmiyyətli müəssisələrin sayı genişlənir və həmin müəssisələr uğurla fəaliyyət göstərir. İsmayıllı rayonunda "Buta-qrup" şirkəti, Aqropark və Keyvəndi kəndində inşa edilən heyvandarlıq kompleksi kimi müəssisələr xüsusi yer tutur. Məlumat üçün qeyd edək ki, rayonun inzibati ərazisi daxilində olan 207372 hektar torpaq sahəsindən 113973 hektarı kənd təsərrüfatı təyinatlı torpaq sahəsidir ki, bundan 32914 hektarı əkin, 50895 hektarı örüş, 1800 hektarı çoxillik əkmələr, 2427 hektarı biçənək, 351 hektarı dincə qoyulmuş, 25586 hektarı isə yay otlaq sahəsindən ibarətdir.

**"Buta-qrup" şirkəti**

"Buta-qrup" MMC 2013-cü ildən İsmayıllı rayonunda fəaliyyət göstərir. Kürdmaşı kəndi ərazisində yerləşən aqroparkın 200 hektar torpaq sahəsi var. 100 hektar sahədə taxıl əkini başlayıb, bunun 70 hektarı buğda, 30 hektarı isə arpadır. Qeyd edək ki, 2018-ci ilin yazında qarğıdalı və ya kartof əkilməsi planlaşdırılıb.

Bundan əlavə, gələn il aqroparkın əkin sahəsinin yaxınlığında bağçılıq təsərrüfatı da yaradılacaq. Müxtəlif meyvə ağaclarından ibarət bağ 14 hektar sahəni əhatə edəcək.

Hazırda aqroparkda 14 nəfər işçi çalışır və ümumilikdə, 50 nəfərin işləməsi nəzərdə tutulmuşdur. Mövsümi işlərdə isə orta hesabla 350-400 nəfərin işlə təmin olunması proqnozlaşdırılır. Aqroparkın İsmayıllı rayonunda fəaliyyətə başlaması ətraf kəndlərdə yaşayan sakinlərin məşğulluğunun təminatına da müsbət təsir göstərir. Üstəlik, perspektivdə tərəvəzçiliyin intensiv inkişafı da var. Bu da əlavə iş yerləri deməkdir.

İnfrastrukturun yaradılması ilə bağlı 50 metrlik işıq xətti çəkilmiş və 600 kva-lıq transformator qurulmuş, ərazinin yaxınlığından keçən kanaldan su xətti çəkilmiş və 100 ha sahənin suvarılması üçün pivot quraşdırılmışdır.

Aqroparkda görülən işlərin yaxşılaşdırılması məqsədilə 21 ədəd texnika alınmış və 6 ədəd texnika "Aqrolizinq" ASC-yə sifariş edilmişdir.

Ərazidə 3 min tonluq soyuducu anbarın və paketləmə sahəsinin tikintisi başa çatmışdır. Tikintisi başa çatmış ərazidə avadanlıqların quraşdırılmasına və eyni zamanda, inzibati binanın və texnikaların saxlanması üçün talvarın tikintisinə başlanmışdır.

Onu da qeyd edək ki, yaxın perspektivdə respublikanın ayrı-ayrı bölgələrində 40-dək iri aqroparkın yaradılması nəzərdə tutulub.

**Keyvəndi kəndində inşa edilən heyvandarlıq kompleksi**

Keyvəndi kəndində "Azza-Agro" tərəfindən inşa edilən 1500 başlıq heyvandarlıq kompleksinin tərkibində ferma, sağım sexi, doğum bloku, inzibati bina (ofis, yeməkxana, yataqxana) mövcudur. Müəssisə istehsala başlayacağı halda burada 120 nəfər işçi çalışacaqdır. İnvestisiya dəyəri 6 milyon manatdır. Ferma 600 baş südlük inəklər üçün nəzərdə tutulub. 300 başlıq tövlənin tikintisi yekunlaşıb, avadanlıq quraşdırılıb.

İnzibati bina (ofis, yeməkxana), qonaqlar və gələn mütəxəssislər üçün yaşayış evi tam hazırdır.

10 ton gündəlik süd emal edən müəssisə, yəni sağım sexi, gündəlik istehsal gücü 2,5 ton olan kəsim və 1 ton ət emalı sexindən ibarət olacaq müəssisədə doğum bloku yekunlaşır və avadanlıq quraşdırılıb.

Alınan avadanlıqlar İsveçrənin "Delaval" şirkətinin istehsalıdır. Kompleksə "Holshtin friz" cinsindən olan inəklərin gətirilməsi nəzərdə tutulmuşdur.

Heyvandarlıq kompleksinə yol infrastrukturunun yaxşılaşdırılmasından ötrü yol çəkilişi işləri davam etdirilir, qısa müddətdə yol asfalt örtüklə örtüləcək, bordurlar qoyulacaqdır.

Kompleksə su çəkilişi işləri və anbarın tikintisi davam etdirilir. Qüvvətli yem hazırlamaq üçün yerli istehsal olan "Asena" şirkətindən yem sexi avadanlığı alınıb və bu yaxınlarda quraşdırılacaq. Texnika üçün qaraj ve iritonnajlı (60 ton) tərəzi quraşdırılıb. Texnikanın böyük hissəsi Almaniya və Hollandiya istehsalıdır (traktor, kombayn, kotan, diski mala, kübrə və toxumsəpən aqreqat və s.).

Hal-hazırda inəklər üçün arpa və yoncadan senaj hazırlanıb və Almaniya istehsalı olan "Bock" şirkətinin qoruyucu plyonkaları ilə örtülüb. Bu yaxınlarda kompleksin ferması da açılacaq.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaqdır.

**Nailə CABBAROVA**

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

Gəncə gil-torpaq Zavodunda Zəylik alunit filizi yatağından gələn filizdən istifadə etməklə işə salınması və istehsal zamanı əmələ gələn sulfat turşusunun Sumqayıtda inşa edilən Karbamid zavodunun aralıq məhsulu olacaq ammiak maddəsindən istifadə imkanlarının, habelə Gəncə gil-torpaq Zavodunun ərazisində ammonium sulfat gübrəsinin istehsalının təşkil edilməsi məqsədilə kalium sulfat gübrəsinin və polivinil-xloridin istehsalının texniki iqtisadi əsaslandırılması, Daşkəsən rayonu ərazisindəki yerli xammal olan Zəylik alunit filizi yatağının ehtiyatlarının qiymətləndirilməsi, anod çubuqlarının istehsalının texniki-iqtisadi əsaslandırılmasını aparmaq üçün məsləhətçi şirkətlərin cəlb edilməsi məqsədilə

## T E N D E R ELAN E D İ R

**Tender keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri, AZ 1022, S.Vurğun küçəsi, 135**

**1.** Açıq tenderdə xidmətlərin satınalınması məqsədilə aşağıdakı 3 lot üzrə həmin sahədə böyük təcrübəyə malik beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi təklif olunur:
**Lot-1.** Gəncə gil-torpaq Zavodunda Zəylik alunit filizi yatağından gələn filizdən istifadə etməklə işə salınması və istehsal zamanı əmələ gələn sulfat turşusunun Sumqayıtda inşa edilən Karbamid zavodunun aralıq məhsulu olacaq ammiak maddəsindən istifadə imkanlarının, habelə Gəncə gil-torpaq Zavodunun ərazisində ammonium sulfat gübrəsinin istehsalının təşkil edilməsi məqsədilə kalium sulfat gübrəsinin və polivinil-xloridin istehsalının texniki iqtisadi əsaslandırılmasının hazırlanması;
**Lot-2.** Daşkəsən rayonu ərazisindəki Zəylik alunit filizi yatağının ehtiyatlarının qiymətləndirilməsinin hazırlanması;
**Lot-3.** Anod çubuqlarının Azərbaycan Respublikasının ərazisində (Gəncə şəhərində) istehsalının texniki-iqtisadi əsaslandırılmasının hazırlanması.
**2.** Tender proseduru 2017-ci ilin dekabr ayının 22-də saat 10:00-da Azərbaycan Respublikasının Maliyyə Nazirliyində (III mərtəbə, otaq №319) keçiriləcəkdir.
**3.** Tenderdə iştirak etmək üçün iddiaçılar hər bir lot üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:
**3.1.** Tenderdə iştirak etmək üçün ərizə;
**3.2.** İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödəniş qəbzi).
**4.** Hər bir lot üzrə tender təklifləri 2017-ci ilin dekabr ayının 21-də saat 10:00-dək Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinə təqdim olunmalıdır.
**5.** Yuxarıda qeyd olunan hər bir lotun predmeti üzrə beş ildən çox iş təcrübəsi, peşəkarlığı, idarəetmə səriştəsi, texniki və maliyyə imkanları olan, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş şərtlərə əməl edən iddiaçılar tenderdə iştirak edə bilərlər.
**6.** Tender təkliflərində iddiaçı tender predmetini səciyyələndirən bütün parametrləri, o cümlədən işin icrasının texniki cəhətlərini, icra müddətini, dəyərini, hesablaşma formasını, işin icra yerini göstərməlidir.
**7.** İddiaçının yazılı şəkildə hər lot üzrə hazırladığı tender təklifi iki zərfə qoyulmalı və hər iki zərf iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.
**8.** İddiaçı təqdim etdiyi sənədlərdə özü haqqında aşağıdakı məlumatları bildirməlidir:
**8.1.** İddiaçının tam adı, ünvanı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə;
**8.2.** İddiaçının texniki-istehsalat (işinin əsas istiqamətləri) fəaliyyəti barədə məlumat;
**8.3.** İddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
**8.4.** Malik olduğu beynəlxalq sertifikatların əsli və surəti (sertifikatın əsli onun surəti ilə üzləşdirildikdən sonra iddiaçıya qaytarılacaqdır).
**9.** İddiaçı təklifin dəyərinin 5 faizi həcmində bank təminatı təqdim etməlidir.
**10.** Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən keçirilən tenderdə iştirak edən iddiaçılar Maliyyə Nazirliyinə müraciətdən və tenderdə iştirak üçün hər bir lot üzrə 300 (üç yüz) manat ödədikdən sonra tenderin şərtlər toplusunu ala bilərlər.
**11.** Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:
Azərbaycan Respublikası Maliyyə Nazirliyi,
**VÖEN 1400108191**
**Ünvan: Bakı şəhəri, S. Vurğun küçəsi-135**
**Dövlət Xəzinədarlıq Agentliyi kod: 210005**
**M/hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN 1401555071**
**S.W.İ.F.T. BİK: CTREAZ22**
**Maliyyə Nazirliyi kitab 002527-2108571**
**Hesab №AZ83CTRE00000000000002108571**
**12.** Tender təklifinin qəbulu və əlavə məlumat almaq üçün 08 noyabr 2017-ci il tarixindən 21 dekabr 2017-ci il tarixinədək saat 10:00-dan 17:00-dək (fasilə saat 13:00-dan 14:00-dək) əlaqələndirici şəxsə - Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin baş məsləhətçisi Zaman Hüseynova müraciət etmək olar.
**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri AZ 1022,**
**S.Vurğun küçəsi, 135, III mərtəbə, 350-ci otaq**
**Telefon: (99412) 404-46-99 (daxili 269); Faks (99412) 404-47-20/21**
**E-mail: zaman.huseynov@maliyye.gov.az**
**13.** Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuş və ingilis dilinə tərcümə edilmişdir.
**14.** Tender "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçirilir.

**Tender komissiyası**

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli 44-cü sayımızda)**

İnsanlar özlərini xoşbəxt hiss etdiklərində, daha inamla fikir söyləyirlər (və gözləyirlər ki, onlara qətiyyətlə müraciət edəcəklər). Bu gözləntilər əsas hesab olunur. İstehlakçılar inadkarlıq gözləyirlərsə, onda sizin təsdiqləyici ifadələriniz informasiyanın emalının sürətini artıracaqdır. Onlar sizin reklamınızı asanlıqla qəbul edəcəklər. Bu, xoş hissiyyat doğuracaq və sizin əmtəənizə də aid olacaqdır.




Qafiyəli şüar və ya CTA (Call-to-Action). Əvvəlki taktika göstərdi ki, təsdiqləyici ifadələr gedonik məhsullar üçün informasiyanın emalının sürətlənməsini artıra bilər. Belə effekt qafiyələrlə də yaranır. Lakin o, hər hansı məhsula tətbiq edildikdə özünü göstərir. Bununla əlaqədar aparılan tədqiqatda tələbələrə alkoqolla əlaqədar iki sloqanı təqdim etdilər:

- Qafiyə ilə: "Ayıqlığı gizlədəni alkoqol ifşa edir" (What sobriety conceals, alcohol reveals).
- Qafiyəsiz: "Ayıqlığı gizlədəni alkoqol təcəssüm etdirir" (What sobriety conceals, alcohol unmasks). Hər iki müddəa eyni məna daşıyır. Lakin tələbələr qərara aldılar ki, qafiyəli ifadə daha dəqiq və düzgündür. Çünki qafiyə qavrama sürətini artırır. Bu məlumatları qiymətləndirərək, tələbələr xoş hislər keçirdilər.

Qafiyənin gücünə diqqət edin və CTA-ya düzəliş edilməsini yoxlayın:

- Be a dove, show some love.
- Whaddya say, donate today.
- Want tour? Drop by our store.

Belə qafiyələr insanlarda sizin CTA ilə assosiasiya olunan xoş təəssürat yaradır. Ona görə də onlar çağırışı yerinə yetirməkdə sabit və dayanıqlı arzunu hiss edirlər.




**BREND VƏ LOQOTİP**

Sağdan brendin elementlərinin yerləşməsi. Birinci taktikada deyilirdi ki, niyə siz elanın sol hissəsində təsviri yerləşdirməlisiniz. Burada qarşılıqlı əlaqə tövsiyə edilmişdir. Əgər təsvir reklam elanının böyük bir hissəsini tutursa, onda siz brendli elementləri sağda yerləşdirməlisiniz.

Bu təklif beyin yarımkürəsinin aktivliyinin bölgüsü və balansının hipotezi ilə şərtlənir. Əgər təsvir böyükdürsə, onda insanlar əsasən sağ yarımkürə ilə elanı emal etməyə başlayacaqlar, eyni zamanda, sol yarımkürə az aktiv olacaqdır.

Hipotezə uyğun olaraq, sol yarımkürə bu məqamda informasiyanın "öz" hissəsini emal edərək və sağ yarımkürə ilə "balanslaşdırmağa" cəhd göstərərək, daha fəal işləməyə başlayacaqdır. Başqa sözlə, yüklənmiş yarımkürə "əl altında" olan informasiyanı şüuraltı dəqiqləşdirəcək. Belə hiss olunmayan reaksiya informasiyanın emalı üçün əlverişlidir.

İnsanlar təsvirlərlə doldurulmuş elanı nəzərdən keçirən zaman onların sol yarımkürəsi sağda yerləşən informasiyanı şüuraltı emal edir. Bundan əlavə, digər tədqiqat göstərdi ki, sağ tərəfdə informasiya daha yüksək estetik göstəricilər formalaşdırır. Buna görə də siz məhz bu yerdə loqotipi yerləşdirməlisiniz.




Loqotipin yerləşdiyi sahənin ölçüsünün artması. Bəzi reklamvericilər loqotipin ölçüsünün azalmasını tövsiyə edirlər, çünki kontent elanın inandırıcılığını azaldaraq, artıq "reklam" kimi görünür. Lakin bu müddəalar heç də doğru deyil. 1363 reklam elanında brendli elementin sahəsinin dəyişilməsi ilə bağlı aparılan tədqiqatlar göstərdi ki, səthin ölçüsünün artması diqqətin miqdarını azaltmır. Brend elementlərin səthinin ölçüsünün artması bütövlükdə bütün reklama olan diqqətə mənfi effektli təsir göstərmir. Digər tədqiqat loqotiplə səthin artmasından yaranan müsbət effekti göstərdi.

Mətn elementi və illüstrasiya ilə müşayiət olunan brendin loqotipi səth vahidinə görə əksər hallarda gözlə təsbit olunur.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




# Azərbaycanın kənd təsərrüfatı məhsulları 30 ölkəyə ixrac edilir

Son illər Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin (DFNX) çevik idarəetmə strukturunun formalaşdırılması, zərərli orqanizmlərin diaqnostikası və keyfiyyətə nəzarət üzrə milli laboratoriyaların diaqnostik səviyyəsinin yüksəldilməsi, fitosanitar sabitliyin qorunub saxlanılması, qeyri- dövlət fitosanitar xidməti subyektlərinin inkişafının dəstəklənməsi və digər tədbirlərin həyata keçirilməsi sayəsində ciddi addımlar atılıb.

Bu fikirləri qurumun rəhbəri Camal Quliyev "Fitosanitar karantin nəzarətində olan məhsulların ənənəvi ixrac bazarlarındakı mövqelərinin möhkəmləndirilməsi məqsədilə fitosanitariya sahəsində beynəlxalq standartların təmin edilməsi" mövzusunda keçirilən tədbirdə deyib.

Qeyd olunub ki, tədbirin əsas məqsədi sahibkarlara fitosanitar karantin nəzarətində olan məhsulların ənənəvi ixrac bazarlarındakı mövqelərinin möhkəmləndirilməsi məqsədilə fitosanitariya sahəsində milli və beynəlxalq qanunvericiliyin aşılanması, zərərli orqanizmlərlə mübarizənin təşkili, Azərbaycanda fitosanitar karantin nəzarətində olan məhsulların ixrac üçün sertifikatlaşdırılması sistemi, ixrac üçün yoxlamaların təhlili zəruriliyi barədə məlumatların verilməsi və bu sahədə dəstəyin göstərilməsindən ibarətdir.

Xidmət rəisi vurğulayıb ki, son illər ölkədə meyvə-tərəvəzin istehsalı 50 faiz artıb. Azərbaycan bir çox ənənəvi bazarlarda mövqeyini qoruyub saxlayıb. Əgər kənd təsərrüfatı məhsulları 2015-ci ildə 15 ölkəyə ixrac olunurdusa, hazırda bu məhsullar 30 ölkəyə göndərilir.

C.Quliyev respublikanın 11 regionunda aqrokimya və karantin-ekspertiza laboratoriyalarının, eləcə də nəzarət-toksikologiya laboratoriyasının funksiyasını həyata keçirən vahid laboratoriya sisteminin yaradılmasını və onun əhəmiyyətini xüsusi qeyd edib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak Azərbaycanda sağlam və keyfiyyətli məhsul bolluğunun olduğunu, fitosanitar karantin tələblərinə ciddi əməl edildiyini diqqətə çatdıraraq, bu sahədə çalışan əməkdaşlara uğurlar diləyib.

Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Başir Quliyev ölkə başçısının təşəbbüsü və dəstəyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin tərkib hissəsi olan aqrar islahatların real nəticələr verdiyini və bu sektorda fəaliyyət göstərən sahibkarların kəmiyyət və keyfiyyət baxımından ciddi şəkildə artdığını vurğulayıb, istixana sektorunun aqrar sahədəki rolundan və əhəmiyyətindən söz açıb. Tədbirdə Bakı-Abşeron, Aran və Cənub bölgələrinin ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalçıları və ixracatçıları iştirak ediblər.

# Azərbaycan Çində Şərab evi açır

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Çinin Şanxay şəhərinə təşkil olunmuş ixrac missiyasına şərab və spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri daxildir.




15 noyabr tarixinədək davam edən ixrac missiyası çərçivəsində bir sıra uğurlu nəticələr əldə edilib.

Səfərin ilk günü - noyabrın 13-də Azərbaycanın ixrac missiyası Çinin ilk və ən böyük ticarət zonası olan "Shanghai Waigaoqiao Free Trade Zone"da yerləşən Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində (ITOC) olub və burada görüş keçirib. Mərkəzin giriş qapısındakı elektron tabloda "Şanxay Azərbaycan şərablarını salamlayır" sözlərinin qeyd edilməsi Çinin Azərbaycan məhsullarına olan böyük marağından xəbər verirdi. Qeyd edək ki, bu mərkəz azad ticarət zonasında yerləşən 300 min kvadratmetr sahədə olan anbarları icarəyə verərək, 10 mindən çox şirkətə yüksək səviyyədə logistika və satış xidmətləri göstərir. Mərkəzin idxal-ixrac həcmi 10 milyardlarla ABŞ dolları olaraq qiymətləndirilir.

Azərbaycanın Çindəki səfirliyinin dəstəyi, AZPROMO və ölkəmizin Çindəki Ticarət Nümayəndəliyi tərəfindən birgə təşkil olunmuş görüşdə AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev Azərbaycanın biznes mühiti, rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, ixrac missiyamızda təmsil olunan şirkətin təmsilçisi Elmar Səidov isə Azərbaycan şərabları barədə məlumat veriblər. ITOC-un baş direktoru He Guoguang mərkəzin fəaliyyəti, Şanxay Pudonq Spirtli İçkilər Assosiasiyasının rəhbəri Baohua Huang isə 117 idxalçı şirkətin üzv olduğu Assosiasiyanın fəaliyyətinə dair məlumat verib. Baohua Huang bildirib ki, Azərbaycan şərablarının idxalı Assosiasiyaya üzv şirkətlərin diqqətinə çatdırılacaq və bu sahədə əməkdaşlıq həyata keçiriləcək.

Görüş çərçivəsində AZPROMO və ITOC arasında əməkdaşlığa dair Memorandum imzalanıb. Görüş zamanı ITOC nümayəndələri Azərbaycan iş adamlarına öz məhsullarını azad ticarət zonasına gələn qonaqlara nümayiş etdirmək üçün lazımi şərait yaradıb.

# "AtaSığorta" ASC yeni ISO 9001:2015 beynəlxalq keyfiyyət sertifikatını əldə etdi

"AtaSığorta" ASC növbəti 3 il müddətinə "Intertek" şirkəti tərəfindən yeni ISO 9001:2015 beynəlxalq sertifikatına layiq görülmüşdür. Şirkət 2005-ci ildən fəaliyyətini Beynəlxalq Standartlaşma Təşkilatının (ISO) keyfiyyət idarəetmə sisteminin tələbləri əsasında həyata keçirir.

"AtaHolding" şirkətlər qrupuna daxil olan "AtaSığorta" 2004-cü ildən sığorta sektorunda fəaliyyət göstərir. Şirkət 35 milyon manata yaxın aktivlərə malik olmaqla 28 sığorta növü - 24 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərə xidmətlər göstərir. AtaSığorta həmçinin təkrarsığorta fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malikdir. İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. Bütövlükdə, "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 90-dan artıq filial, nümayəndəlik və ofislər daxildir.




## ETİBARSIZDIR

**Başirov Loğman Başir oğlunun adına Mehdi Hüseyn küçəsi, ev 49, mənzil 5 ünvanına verilmiş ÖMN-206383 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılsın.**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**